# "BORÇALIDAN GƏLƏN İŞIQ: DİLSUZ MUSA"

Ölçüsüz, qaydasız yaşamaq olmur. Əsirik, ömürgünümüzü girov qoymuşuq olarla-olmazın arasında. Bu qapalı çevrədən "xilas olmaq" insan nəslinin heç birinə qismət olası deyil. Çünki, bəni-insan səhra genişliyində, dağ ucalığında tək-tənha yaşamır. Adam əhatəsində bulunur müdam. Bu münasibətlərdə "qızıl ortanı" özünə ömür-gün yoldaşı seçənlər heç vaxt "neyləyim?", "necə eləyim?" demirlər. Elə o dediyimiz "qızıl orta", - hər şeyi qədərində görə bilməkdir. Yəni, şair-publisit Dilsuz Musanın dediyi kimi:

Hər şey qədərində daha gözəldir,
Qədəri, qisməti biz uca tutaq!
İnsanın öz nəfsi öz əlindədir,
Tamah dişimizi çıxarıb ataq!

Elə bəşər övladının min illər boyunca içiylə, cəmiyyətlə qurtarmayan mübarizəsidir – özü-özüylə aparır. Nə yazıqlar olsun ki, bu daxili mübarizədən daim bəşər övladı məğlub çıxır. Çünki, yaranış günahla doludur. Bu günaha abunə olan insan özünü dərk eləmək məqamına qalxa bilmir. "Özünə, nəfsinə, umacaqlarına sahiblik eləyə bilmir". Bu bəşər övladının çıxa bilmədiyi "bar ağacının" heç vaxt meyvə gətirməyəcək toxumunun kökdən qurumasıdır. Səbəb isə "dünyanı günah dənizlərində çimizdirən" iki ayaqlının gedə bilmədiyi, yaxud qalxa bilmədiyi ucalıq olaraq qalır.

Dünyanın buz qatı əriməkdədir,
Çaylar məcrasına sığışmır yenə!
Deyirlər bəndənin günahı nədir?
Günahsız bir bəndə göstərin mənə...
"Günahsız bir bəndə göstərin mənə"...

Çox müdrik bir ümumiləşdirmə. Bunun analoqu olan misralar, fikirlər var...

"Hamı günahkardı dünyada ancaq,
Dünyada heç kəsin günahı yoxdu"...

Bir nöqtədə birləşən fikir və düşüncənin iki şair tərəfindən bədii ifadəsi. Dilsuz Musa və Ramiz Rövşən... Kim əvvəl deyib, kim tez bu nəticəyə gəlib, onu özləri bilər, bir də öz allahları. Bizim üçün maraqlı budur ki, iki düşünən fikir burulğanı bir ucalıqda baş-başa gəlib. Hərəsi də öz üslubuna uyğun "oxuya bilib" öz qənaətini...

Dilsuz Musa (Musayev) Borçalıda dünyaya gəlib – sazlı-sözlü bir məkanda. Hüseyn Saraclı kimi böyük Türk ozanını yetirən obada boya-başa çatıb. Ayaq üstə gəzəri Borçalıdı Dilsuz. Mülayimdi Borçalı genişliyi kimi. Çox sadə və üzüyoladır. Ağır, tafdalı, "köhnə" kişiləri xatırladır. Təmkini, müdrikliyindən su içir. Yüz şeydən birinə dillənər. Yumşaq tonda dediyi söz, olayı düzgün, olduğu kimi ifadə eləyir. Ruhu göy, çuxasının ətəyi yer süpürən kişilərdən dərs alıb. Hər şeyi dəqiq çəkir, boş yer qoymur ki, oradan hava dola. Ancaq mən duyuram – hesablaşmadığı məsələlərdə çox sərt və amansızdır. Haqsızlığa heç vaxt üz verməyib, haqqı-ədaləti bir bayraq kimi başının üstünə qaldırıb. Yurdu, vətəni göz bəbəyi kimi sevir, insanlara məhəbbəti sonsuzdur. İnsan əməyini qiymətləndirməyənlərə, başqasının haqqını yeyənlərə qarşı söz qılıncını, misra qəzəbini əskik eləmir. Yenə də "hər şey qədərində daha gözəldi". Təəssüf ki, bu belə deyil.

Qarabağ əlili yaxşı nə gördü,
Köksünü göynətdi laqeydlik dərdi.
Yağı düşmənlərə əyilməsə də,
Ehtiyac yükündən əyildi qəddi...

Bu ağrıları yaxşı duyur Dilsuz Musa. Çünki doğulduğu yurd daim yağı basqınına məruz qalıb. Yurddaşlarının evi-eşiyi talanıb, yurdun coğrafiyasına, onun adına-soyadına zaman-zaman basqılar olub. Min illərlə gözləri gördüyü, qulaqları eşitdiyi yeryurd adları gözlərinin qabağındaca dəyişdirilib, başqa adla-ünvanla çağırılıb. Bunlar bir ağrı kimi onun qələmindən keçir, səbrini daraldır, düşüncəsinə ağırlıq gətirir. Bax onda görürsən ki, müdrik sifətinə, ağır sanbalına çılğınlıq gəlir, içiynən, ruhuynan barışmır bu olacaqlarla.

Daşımaq çətindi bu qəm yükünü,
Qəlbimin aynası çilik-çilikdi.

Dilsuz "söz mülkümün sultanı" olan yurddan, obadan çıxdığı üçün duyğu və fikirlərini ifadə elədiyi bədii dil obrazlı və yumşaqdı. Bulaq kimi qaynardı, dağ şəlaləsi kimi çağlayır, axar su kimi dupdurudur.

İndi göylərində səksəkə, duman,
Adını dandılar dəyişdi dövran,
Könüllər pərişan, qəlblər nagüman...
Tanrı sənə versin dözüm, Saraclı!

Bu da yurd ağrılı şair gileyi! Bu da naçar söz, fikir burulğanında çırpınan şairin yurd önündə hesabatı. Şair gördüyünü, duyduğunu yazıb car eləyəndi. Bu dərdin qarşısını ala bilən oğulları qulağını yapırdıb durmamalıdı. Şairin səsinə hay verməlidi. Qələmin yazdığını – öz qanlarıyla yazmalıdı. Onda boz dağ-daş Vətən olur. Yoxsa, şairin yazdığı qələmi sındırarlar, vətəndaşın dözümünü əli-qolu bağlı məhbusa çevirərlər. Allah bu yurdu, Vətəni, Vətən övladlarını o bəladan qorusun.

Yenə sözüm onadı; yurd da, yurddaşlıq da, vətən sevgisi də, şairə, qələm adamına hörmət və mərhəmət də dəyərində gözəldir...



Onda şair sözü daha iti olar, şair qələmi daha yüyrək!

"Ağlı çaşın", "qəlbi daşın" ümidinə qalsa bu yurdlar, onda onun dağında-daşında yağılar at oynadar. Onda şair misraları vaxtsız tökülən xəzəllər kimi qan ağlayar. Onda şair qələmi poladdan qılınc geyinər, özünə, öz varlığına qəbir qazar, yas qurar, yeri-göyü ayağa qaldırar. Necə ki, Dilsuz Musa ustad Məmməd Araza üz tutub dərdini, ağrısını aləmə car çəkir;

Dünənimə çox böhtanlar atıldı,
Sərvətimə necə kürzə sarıldı.
"Haqq" deyənə haqsız divan quruldu,
Gözü korda, ağlı çaşda nə günah?!.

Bəs günahın kökünü harda axtaraq? Başbilənlərimizdə, ziyalı adını başı üstdə bayraq edənlərdə. Dəstənin önündə gedənlərdə, səlahiyyət sahiblərində... Millət onların sözüylə, əməliylə "qidalanır". Əgər onlar öz yerlərində düzgün dayanıblarsa, kütlənin millətə çevrilməsi prosesi asan, ağrısız keçir. Yox, əgər "baş-ayaqdılarsa", onda vay millətin gününə. Ustad Məmməd Araz demişkən:

Qalaça küncünə qısılan şahin, -
Xalqı palçıq kimi tapdalanıbdı.

Məmməd Araz sözündən qor alan Dilsuz Musa qəlb ağrısıyla pıçıldayır ki:

İnsanlar var, yüz fitnəli, yüz felli,
Yerdən, göydən yapışıblar dördəlli,
Ağsaqqallıq yaşda deyil, bu bəlli,
Əlli yaşda, səksən yaşda nə günah.

Söz sahibinə çox oxşayır... Birbaşa demək olar ki, söz – misra onu yazanın, yaradnın "foto-sülueti-dir". Canı canından, qanı-qanından od götürür. Dilsuzun şeirləri də sözün, qələmin "ustadlarına söykəndiyi üçün ulu görünür, atalı-analı böyüyən qəddi-qamətli oğul təsiri bağışlayır.

İstəyini ürəyinə salan var,
Bulud-bulud boşalan var, dolan var.
Ana Torpaq, Şəmşır adlı balan var,
O kükrəyən sinəsimi, bilmirəm?!
Pərdə-pərdə dinəsimi bilmirəm?!

Dilsuz Musanın ilhamının bir qanadı ululara, ucalıqlara söz bahadırlarına söykənirsə, ikinci qanadı üstündə gəzdiyi, geniş dünyaya qanad açdığı qədim-qayım Borçalıdan güc alır. Orda sazın-sözün ulu ənənəsi yaşayır. Aşıq Sadıq məktəbi, Əmrah, Xındı Məmməd, Hüseyn Saraclı, aşıq Kamandar ənənələri bu gün də Borçalı əsilli cavanların sazında, sözündə yaşayır, qanad açır, məclislərin bəzəyi olur. Abbas Abdulla, İsa İsmayılzadə, Zəlimxan Yaqub, Səməd Qaraçöp, Allahverdi Təhləli, Telman Nəzərli, Rafiq Hümmət və neçə-neçə adlar, imzalar Dilsuz Musanın söz-misra qonşuluğunda boy göstərib. Borçalının barlı-bərəkətli torpağı, yurddaşlardan qədimlərdən bəri üstündə gəzdirdikləri adət-ənənə bir çox qələm sahibləri kimi Dilsuz Musanın yaradıcılığında boy göstərir. Yurdun dünəninə nəzər salınır, ağ-qara günləri bədii sözün qüdrətiylə ortaya çıxır;

Sən ey doğma yurdum, ey doğma kəndim,
Hər yerdə, hər zaman sənə güvəndim.
Nələr çəkməyibdi dünyada başın,
Şahiddir bunlara torpağın, daşın...

"Nə qədər ərlərin, ərənlərin, öz doğma xalqına yol göstərənlərin Sibirə sürüldüyü şair ürəyində ağrı-acıyla xatırlanır..."

Quşlar da ağlayır yuvadan ayrı,
Əkinçi babanın çöldə cüt səsi,
Nənəmin taxt üstdə qırıq cəhrəsi,
Qanlı fəlakəti görüb ağladı,
Yenə gələcəyə ümid bağladı...

Gələcək də belə... Şair qardaşım yaxşı bilir ki, gələcək gəlmir, gətirilir. Qılıncların iti ağzıyla yazılır qövmün dünəni də, gələcəyi də... Ağıllı söz adamının qələmindən su içir nura boyanan sabahlar. Qılınc, söz millətin sabahını yazır; biri qanla, o birisi isə qana bələnmiş ürəklə. Hardasa boşluq buraxsa, demək, ora zülmətə boyanacaq, gələcək qan qoxusuna bələnəcək. Millət qan gölündə çiməcək... Onunçün gələcək iti qılıncla və aydın qələmlə yazılmalıdır. İdrak işığı millətin başına sığal çəkməlidir. Yatırtmaq üçün yox, onu daim ayaqda saxlamaq üçün. Bu müqəddəs vəzifə hökmdarlarla, ziyalılarla yanaşı – şairin, söz adamının çiyninə düşür. Möhkəm çiyin bunu daşıyır, zəif çiyin isə bunun ağırlığına dözmür keçir vəsfə. Boğazdan yuxarı sözlərlə şumluqda at səyirtməyə... Onda həqiqi söz adamı başlayır içini yeməyə...

İndi at səyirdir nadan, sərsəri,
Yoxdu yaxşının da daha dəyəri.
Yaman azalıbdı sözün kəsəri –
Qiymətsiz, kəsərsiz sözü neyləyim?

Çətin dərddi, şair qardaşım! Söz kəsərdən düşəndə, qılınc korşalır. Həmişə sözün kəsərli, qılıncın iti olsun. Sözünə, ruhuna dərin sayğılarla Avdı Qoşqar.



*Avdı QOŞQAR*